

# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 44 (23.931)

*4 mart 2022-ci il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## *Rəsmi xronika*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 3-də Tacikistan Respublikası Ali Məclisi Milli Məclisinin sədri Rüstəm Emoməlini qəbul edib.

Azərbaycanın və Tacikistanın bir çox istiqamətlərdə sıx qarşılıqlı fəaliyyət həyata keçirdiyini vurğulayan dövlətimizin başçısı özünün Tacikistan Prezidenti Emoməli Rəhmonla təmaslarının və qarşılıqlı dəstəyin önəmini qeyd edib. Ölkələrimiz arasında parlamentlərarası əməkdaşlığın da uğurla inkişaf etdiyi bildirilib, iqtisadi, nəqliyyat və investisiya qoyuluşu sahələrində də yaxşı perspektivlərin mövcud olduğu vurğulanıb.

Tacikistan Respublikası Ali Məclisi Milli Məclisinin sədri xoş sözlərə görə minnətdarlığını bildirib.

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev həmin gün Şahin Seyidzadəni "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin İdarə Heyətinin sədri vəzifəsinə təyin olunması ilə əlaqədar videoformatda qəbul edib. Dövlətimizin başçısı qəbulda çıxış edib.



## Tikinti-quruculuq tədbirləri iqtisadi inkişafın göstəricisidir



***Bu bir həqiqətdir ki, ümummilli lider Heydər Əliyevin böyük nüfuzu hələ Sovetlər Birliyi dövründə ittifaq səviyyəsində bir çox layihələrin Azərbaycanda, eləcə də Naxçıvan Muxtar Respublikasında reallaşmasına imkan vermişdir. Nəticədə, yeni istifadəyə verilən böyük istehsal müəssisələri təkcə əhalinin məşğulluğunu təmin etməmiş, eyni zamanda böyük işçi kollektivləri üçün yeni yaşayış binalarının tikilməsinə, onların ictimai nəqliyyatla təmin olunmasına, əlavə olaraq bir sıra zəruri obyektlərin (yeməkxana, mağaza, məktəb, uşaq bağçası və sair) yaradılmasına imkanlar açmışdı.***

Müstəqilliyimizin bərpasından sonrakı dövrdə, daha doğrusu, bazar iqtisadiyyatı dövründə isə infrastruktur quruculuğu yeni baxışları ortaya qoydu. Planlı iqtisadi dövrdən fərqli olaraq sərbəst biznes mühitində bu tələblər özünün xarakterini dəyişmək məcburiyyətində qaldı. Əgər Sovetlər Birliyi dövründə sənaye və istehsal sahələri, müxtəlifprofilli təhsil, mədəniyyət və səhiyyə müəssisələri yalnız böyük şəhərlərdə cəmləşirdisə, bu gün artıq belə fəaliyyətin mərkəzdən kənara paylaşılmasının şahidi oluruq. Və yaxud o dövrdə kənddən şəhərə hərəkətlilik "kübar həyata can atmaq" kimi qəbul olunurdusa, bu gün artıq sosial-texnoloji zənginliyin "yorğunluğundan" şəhərdən kəndə istiqamətlənmə daha geniş yayılmaqdadır. Yalnız insan amilinə dəyər verilən ölkələrdə (belə ölkələrin sayı çox azdır) yanaşma bu cürdür ki, hər bir yaşayış məntəqəsinin müasir kommunikasiyalara çıxışı olsun. Bu, həm də müasir dövrdə ölkədaxili miqrasiya proseslərinə nəzarətin ən yaxşı yoludur.

Bütün bunlara əsaslanaraq deyə bilərik ki, illərdir, muxtar respublikamızda geniş şəkildə aparılan quruculuq tədbirləri məqsədyönlü şəkildə icra edilir və həyata vəsiqə qazanan hər bir tikili insanların rahat işləyib-yaşamaq haqqının qorunmasına hesablanıb.





Müasir dövrdə muxtar respublikamızın infrastruktur gözəlliyinə yeni çalarlar qatan yeni tikililər diyarımızın bütün bölgələrini əhatə edir. Bu quruculuq siyasətinin möhtəşəmliyi həm də onda özünü göstərir ki, görülən işlər bütün demoqrafik şərtləri alt-üst edir. Ötən yaxın illər ərzində əhalisi az, şəhər və ya rayon mərkəzi ilə gediş-gəlişi çox çətin olan ən ucqar dağ kəndlərində belə, müasir tikinti layihələrinin həyata keçirilməsi bu gün insanların kəndə bağlılığını artırmaqla yanaşı, dövlət-xalq birliyinin gücünü də nümayiş etdirir. Bir zamanlar ucqar kənd yaşayış məntəqələrinə, sadəcə, torpaq yollar uzanırdısa, indi həmin məntəqələrə rahat yollarla bərabər, təbii qaz, elektrik, müasir rabitə xətləri də uzanır. Ucqarlardan təbii nemətlərin, mərkəzdən isə müasir kommunikasiyaların daşındığı bu yollar kəndlə şəhər arasındakı məsafələri təkcə fiziki baxımdan deyil, həm də mənəvi olaraq yaxınlaşdırır. Artıq illərdir, tikilən və ya yenidən qurularaq istifadəyə verilən quruculuq ünvanlarının yayılma həcmi, demək olar ki, Naxçıvan Muxtar Respublikasının fiziki xəritəsi ilə eynilik təşkil edir. Rəsmi statistik məlumata nəzər yetirsək, təkcə 2021-ci ildə bu sahədə görülən işlərin həcmi ilə tanış olmaq bəs edir ki, ümumi mənzərəni təsəvvürümüzdə canlandıra bilək.

Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin ötən ilin yekunlarına dair məlumatında qeyd olunur ki, 2021-ci ildə muxtar respublikada 355 müxtəlif təyinatlı obyekt tikilmiş, yenidən qurulmuş və ya əsaslı təmir olunmuş, 149 müxtəlif təyinatlı obyektin tikintisi, yenidən qurulması və ya əsaslı təmiri davam etdirilmişdir. Yaşayış məntəqələrinin abadlaşdırılması, səmərəli idarəetmənin və əhaliyə göstərilən xidmətlərin səviyyəsinin yüksəldilməsi tədbirlərinə uyğun olaraq 2021-ci ildə 10 kənd mərkəzi istifadəyə verilmiş, 3 kənd mərkəzinin tikintisi isə davam etdirilmişdir. Həmçinin muxtar respublikada 2 yaşayış binasının tikintisi, 8 yaşayış binasının yenidən qurulması başa çatdırılmış, 1 yaşayış binasının tikintisi, 7 yaşayış binasının yenidən qurulması davam etdirilmişdir. Bundan əlavə, Naxçıvan şəhərində tələbə yataqxanasının yenidən qurulması başa çatdırılmış, "Gənclər Yaşayış Kompleksi"nin tikintisi davam etdirilmişdir. Əhalinin həyat səviyyəsinin yaxşılaşması da tikinti-quruculuq işlərinin həcminə öz təsirini göstərmiş, ötən il vətəndaşların şəxsi vəsaiti hesabına, ümumilikdə, 376 min 661 kvadratmetr yaşayış sahəsi istifadəyə verilmişdir.

Adətən, xarici analitiklərin dilindən bu fikirləri tez-tez eşidirik: "Azərbaycan o ölkələrdəndir ki, dünyanın inkişaf etmiş ölkələrinin bir neçə onillərboyu keçdiyi yolu çox qısa bir zamanda qət edə bilib". Bu fikirlər həm də onun təsdiqidir ki, tikinti-quruculuq tədbirləri iqtisadi inkişafın göstəricisidir.

✍ **Səbuhi HƏSƏNOV**

## Naxçıvan Dövlət Universiteti Avrasiya Ali Təhsil Sammiti EURIE 2022-də təmsil olunub

*Naxçıvan Dövlət Universiteti Türkiyənin İstanbul Aydın Universitetində hibrid formatda 7-ci Avrasiya Ali Təhsil Sammiti EURIE 2022-nin rəsmi açılış tədbirində təmsil olunub.*



Naxçıvan Dövlət Universiteti Elm və innovasiyalar bölməsinin müdiri Rza Məmmədov, Beynəlxalq əlaqələr bölməsinin müdiri İlahə Hüseynova, Jurnalistika və xarici ölkələr ədəbiyyatı kafedrasının müdiri Şəhla Şirəliyevanın iştirak etdiyi sammitdə 50-dən çox ölkədən 1550-dən çox nümayəndə heyəti iştirak edib.

EURIE 2022-nin açılış mərasimində çıxış edən Avrasiya Universitetlər Birliyinin prezidenti Mustafa Aydın tədbirə həm canlı, həm də onlayn olaraq qoşulan rəsmi nümayəndələri salamlayaraq sammitin əhəmiyyətindən danışıb. Rəsmi açılışdan sonra tədbir bölmə iclasları ilə davam edib.

Sammitin ikinci günündə tədbir Mərmərə Universitetində davam edib. Burada universitetin tanıtım çarxı nümayiş olunub. Mərmərə Universitetinin Beynəlxalq Əlaqələr və Akademik işbirliyi ofisinin baş direktoru professor Nuri Tınaz qonaqları salamlayaraq universitetin beynəlxalq əlaqələri və akademik əməkdaşlıq haqqında ətraflı məlumat verib. Sonra Amerika, İngiltərə, Əfqanıstan, Pakistan, Özbəkistan, Rumıniya, Misir və dünyanın digər ölkələrindən sammitdə iştirak edən universitet əməkdaşları təmsil etdikləri ali təhsil ocağı haqqında qısa məlumat veriblər. Universitetimizin Beynəlxalq əlaqələr bölməsinin müdiri İlahə Hüseynova da Naxçıvan Dövlət Universitetinin keçdiyi tarixi inkişaf yolu və beynəlxalq əməkdaşlıqda qazandığı uğurları tədbir iştirakçılarının diqqətinə çatdırıb.

Universitetlərin tanıdılması, həmçinin gələcək əməkdaşlıqların qurulması baxımından səmərəli olan sammit bölmə iclasları ilə öz işinə davam edib. Bölmələrdə Qırğızıstanın Mərkəzi Asiyanın American Universitetinin, İstanbul Universitetinin əməkdaşları aktual mövzularla çıxış ediblər.

Qeyd edək ki, EURIE 2016-cı ildən təşkil edilən illik beynəlxalq ali təhsil konfransı və sərgisidir. EURIE sərgisi müxtəlif ölkələrdən və regionlardan gələn iştirakçı ali təhsil müəssisələri və ali təhsildə digər maraqlı tərəflər üçün böyük şəbəkələşmə, akademik tərəfdaşlıq və biznesin inkişafı imkanlarını təklif edir. EURIE-nin zəngin konfrans proqramı bu sahədə tanınmış mütəxəssislərin iştirakı ilə ali təhsilin idarə edilməsində əsas mövzulara toxunur. EURIE-də yüksək səviyyəli akademik rəhbərlik, Beynəlxalq Ofis direktorları və universitetlərin əməkdaşları və sektorun digər maraqlı tərəfləri, məsələn, beynəlxalq marketinq xidməti təminatçıları, xaricdə təhsil üzrə məsləhətçilər və dövlət ali təhsil orqanları iştirak edirlər.

Qeyd edək ki, 3 gün davam edəcək sammitin proqramına panel sessiyaları, dəyirmi masalar, tanınmış təhsil nümayəndələri ilə görüşlər, tematik seminarlar, eləcə də təhsil sərgisi daxildir.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

## *"Naxçıvan innovativ inkişaf mərhələsində"* mövzusunda açıq dərs

*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Naxçıvanşünaslıq Mərkəzinin təşkilatçılığı və "Naxçıvan" Universitetinin tələbələrinin iştirakı ilə "Naxçıvan innovativ inkişaf mərhələsində" mövzusunda açıq dərs keçilib.*

Dərsi giriş sözü ilə açan mərkəzin elmi katibi Nihad Tarverdiyev bildirib ki, qədim dövlətçilik tarixi olan Naxçıvanın inkişafı ulu öndər Heydər Əliyevin adı ilə sıx bağlıdır. Bu gün Naxçıvanın bütün sosial-iqtisadi, infrastruktur və müdafiə məsələləri yüksək səviyyədə öz həllini tapır. Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikasının çoxşaxəli iqtisadiyyatın formalaşdırılması və sosial sahələrinin inkişafı üzrə mühüm tədbirlər həyata keçirilir. Qazanılan uğurların təməlində ulu öndərin siyasəti dayanır. Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvanın uğurlu, dinamik inkişafı təmin edilir. Naxçıvan Muxtar Respublikasının müstəqillik illərindəki sürətli və hərtərəfli yüksəlişi Azərbaycan dövlətinin müasir inkişafının real təzahürlərindən, mühüm göstəricilərindən biridir.

Sonda mərkəzdə yaradılan sərgiyə baxış olub.

**Xəbərlər şöbəsi**



*Ümummilli lider Heydər Əliyevin müəllifi olduğu milli ideologiya işığında sürətlə irəliləyən ölkəmiz bu gün iqtisadiyyatın artım tempinə görə dünyada lider dövlətlər sırasındadır və Azərbaycan regionun təhlükəsizlik qarantıdır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ölkəmizə rəhbərliyi dövründə Azərbaycanın beynəlxalq aləmdə mövqeyi daha da möhkəmlənib, müsbət imici formalaşıb. Artıq Azərbaycan deyəndə, sadəcə, bir neft ölkəsi deyil, tolerant bir cəmiyyət, güclü iqtisadiyyata malik etibarlı tərəfdaş başa düşülür. Əldə olunan bütün nailiyyətlərdə gənclərin də rolu xüsusi vurğulanmalıdır. Bu da onunla bağlıdır ki, ölkəmizdə onların hərtərəfli inkişafı prioritet vəzifələr sırasındadır və bu istiqamətdə həyata keçirilən tədbirlər davamlı xarakter alaraq öz bəhrələrini verir.*

## Yeni Dövlət proqramı gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almaları ilə bağlı yeni hədəflərə hesablanıb

### *Muxtar respublikada da dünya təhsil sisteminə inteqrasiya prosesi uğurla həyata keçirilir*

Bir qədər əvvələ qayıtsaq görərik ki, 2003-cü ildən sonrakı dövrdə Prezident cənab İlham Əliyev gənclər siyasətinin inkişaf istiqamətini mövcud ənənələr əsasında daha da təkmilləşdirdi; Azərbaycan gəncliyi ilə bağlı Dövlət proqramları qəbul edildi, Azərbaycan Gənclərinin İnkişaf Strategiyası təsdiqləndi. Gənclər siyasətində milli və dövlətçilik maraqlarının prioritet olması 44 günlük Vətən müharibəsində həlledici rol oynadı. Müharibədə əsas missiyanı məhz cənab İlham Əliyevin Prezidentliyi dövründə yetişən gənclər yerinə yetirdilər. Ölkə başçımız 2 fevral 2022-ci ildə Azərbaycan Gəncləri Gününün 25 illiyinə həsr olunmuş Gənclər Forumunda demişdir: ***“... Biz azad ölkədə yaşayırıq, sabitlik olan ölkədə yaşayırıq, özünə güvənən ölkədə yaşayırıq. Biz haqlı olaraq fəxr edirik ki, Azərbaycan vətəndaşlarıyıq və gənclər həm öz gələcək həyatını düzgün müəyyən etmək üçün və eyni zamanda dövlətə maksimum xeyir vermək üçün fəal olmalıdırlar. Mən bu sözləri deməklə, eyni zamanda Azərbaycan gənclərinə həm ürək sözlərimi deyirəm, həm də təşəkkür sözümü deyirəm. Çünki bir çox hallarda, xüsusilə Vətən müharibəsində gənclərin rolu həlledici olmuşdur və biz haqlı olaraq gənclərimizlə fəxr edə bilərik”.***

Bu gün ölkəmizdə gənclərin inkişafına göstərilən diqqətin nə qədər yüksək olduğu digər ölkələrin gənclər siyasəti ilə müqayisə zamanı aydın görünür. Məhz bu səbəbdəndir ki, gənclər siyasətində Azərbaycan modeli yaranmağa başlayıb. Bu model resursların səmərəli və düzgün formada insan kapitalının inkişafına yönəldilməsi üzərində qurulub. Ölkə Prezidenti cənab İlham Əliyevin 2005-ci ilin avqustunda təsdiq etdiyi və icrası uğurla başa çatmış “Azərbaycan gəncliyi Dövlət Proqramı (2005-2009-cu illər)”, 2007-ci ilin “Gənclər ili” elan edilməsi, “Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə (2007-2015-ci illər) Dövlət Proqramı”nın, 2011-ci ildə “Azərbaycan gəncliyi 2011-2015-ci illərdə” Dövlət proqramının qəbul edilməsi, yüksək nailiyyətlər qazanmış gənclərin əməyinin qiymətləndirilməsi məqsədilə müxtəlif mükafatların təsis edilməsi, gənclərin forumlarının, tələbələrin və yaradıcı gənclərin ümumrespublika toplantılarının keçirilməsi, gənc liderlər məktəbinin yaradılması, gənc ailələrə və hərbi qulluqçulara ipoteka kreditlərinin verilməsi və sair kimi layihələrin reallaşdırılması





dövlət gənclər siyasətinin ən mühüm tərkib hissəsi kimi gənclərin cəmiyyət həyatında fəallığının artırılmasına mühüm töhfələr verdi. Prezident cənab İlham Əliyevin gənclərin intellektual, fiziki və mənəvi inkişafını, ölkənin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında fəal iştirakını təmin etmək məqsədilə “2015-2025-ci illərdə Azərbaycan gənclərinin inkişaf strategiyası”nın, “Azərbaycan gəncliyi 2017-2021-ci illərdə” Dövlət Proqramının təsdiq edilməsi haqqında sərəncamları dövlət siyasətində davamlılığın, sistemli və kompleks yanaşmanın təzahürüdür.

Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 28 fevral tarixli Sərəncamı ilə təsdiq edilmiş “Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2026-cı illər üçün Dövlət Proqramı” da xüsusi əhəmiyyət kəsb edir. Yeni Dövlət proqramının icrası ölkədə daha keyfiyyətli insan kapitalının formalaşmasına və Azərbaycan Respublikasının beynəlxalq reytinqlərdə mövqelərinin əhəmiyyətli şəkildə yaxşılaşmasına şərait yaradacaq, əmək bazarında tələb olunan ixtisas sahələri üzrə peşəkar kadrlar hazırlanacaq, ölkəyə qayıdan məzunların ən müasir təcrübə və biliklərdən istifadə edərək göstərəcəkləri fəaliyyət ölkənin tərəqqisinə töhfə verəcəkdir.

Dövlət proqramının icrası müddətində hər il 400 nəfərdən çox olmamaqla, ümumilikdə, 2000 nəfərədək Azərbaycan Respublikası vətəndaşının xaricdə nüfuzlu ali təhsil müəssisələrində ali təhsilin bakalavriat və magistratura səviyyələrində təhsil almasının təmin edilməsi nəzərdə tutulur.

Dövlət proqramında cəmiyyətin prioritet istiqamətlər üzrə bilik, bacarıq və səriştələrə malik peşəkar kadrlara olan tələbatının təmin edilməsi, istedadlı gənclərin Azərbaycan Respublikasının dayanıqlı inkişafı üçün zəruri olan müasir səriştələrə yiyələnməsi üçün nüfuzlu xarici ali təhsil müəssisələrindəki təhsil proqramlarına yönəldilməsi, gənclərin xarici ölkələrdə təhsil almalarına dövlət dəstəyinin davam etdirilməsi və bununla bağlı səmərəli maliyyələşmə mexanizminin yaradılması, istedadlı gənclərin nüfuzlu xarici ali təhsil müəssisələrində ali təhsilin bakalavriat və magistratura səviyyələri üzrə təhsilinin stimullaşdırılması, Dövlət proqramı çərçivəsində nüfuzlu xarici ali təhsil müəssisələrində təhsilini uğurla bitirmiş gənclərin Azərbaycan Respublikasının dayanıqlı inkişafını təmin edəcək prioritet sahələrdə məşğulluğu üçün imkanlar yaradılması əsas məqsədlər kimi nəzərdə tutulmuşdur.

Beynəlxalq təcrübə və meyillər nəzərə alınaraq hazırlanmış Dövlət proqramında müşahidə edilən qlobal trendlər və onların ölkə potensialına təsirləri qiymətləndirilmiş, mövcud vəziyyət təhlil edilmişdir.

Prioritet istiqamətlər üzrə ixtisas sahələrinin, prioritet ixtisas sahələri və nüfuzlu xarici ali təhsil müəssisələri üzrə təhsil proqramlarının, Dövlət proqramında iştirakın seçim meyarlarının və prosedurlarının, xaricdə təhsilin maliyyələşdirilməsi ilə bağlı qaydaların, Dövlət proqramı məzunlarının məşğulluğunun təmin edilməsi imkanlarının yaradılması və sair kimi məsələlər proqramda əsas istiqamətlər kimi müəyyən edilmişdir.

Proqramın vacib və aktuallığı isə belə əsaslandırılmışdır: *“Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli 2469 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər”in dünyada artan rəqabətə davam gətirə bilmək üçün iqtisadiyyatın uzunmüddətli inkişafının müasir və güclü təhsilə arxalanmasına, məhz təhsil vasitəsilə insan kapitalının milli sərvətdə iştirak payının davamlı şəkildə artırılmasına dair müddəaları ölkədə insan kapitalının inkişafı baxımından xüsusi əhəmiyyət kəsb edir. Yaxın perspektivdə əmək bazarında yeni bacarıqlara, yeni ixtisaslara ehtiyac yaranacağı ilə əlaqədar bir sıra ixtisaslar, o cümlədən informasiya texnologiyaları, mühəndislik, fundamental və tətbiqi elmlər, ətraf mühit, nəqliyyat, energetika, təhsil, ictimai səhiyyə və sair sahələr üzrə kadr hazırlığına olan tələbatı qarşılamaq üçün xaricdə təhsil proqramlarının reallaşdırılması vacibdir.*

*44 günlük Vətən müharibəsində Azərbaycanın əldə etdiyi tarixi qələbə nəticəsində işğaldan azad edilmiş ərazilərin bərpası ilə bağlı ən müasir texnologiyalar tətbiq edilməklə yaradılacaq infrastrukturun idarə edilməsi üçün yüksək bacarıqlara malik insan kapitalının formalaşdırılması zərurəti də xaricdə təhsil imkanlarından istifadəni aktuallaşdırır”.*

Dövlət proqramı çərçivəsində nüfuzlu xarici ali təhsil müəssisələrində təhsilini uğurla bitirmiş gənclərin Azərbaycan Respublikasının dayanıqlı inkişafını təmin edəcək prioritet sahələrdə məşğulluğunun təmin olunması xüsusi diqqətdə saxlanılacaq, bu prioritet istiqamətin reallaşdırılması üçün ehtiyac duyulan sahələr üzrə iş təkliflərinin verilməsi və karyerada yüksəliş mexanizmi hazırlanacaq, dövlət orqanlarında bu Dövlət proqramı çərçivəsində məzun olmuş şəxslərin işlə təminatına üstünlük veriləcəkdir.

Sevindirici haldır ki, ölkəmizdə sistemli şəkildə həyata keçirilən dövlət gənclər siyasəti nəticəsində qəbul edilən proqramlar, sərəncamlar Naxçıvan Muxtar Respublikasında da uğurlu və sistemli şəkildə reallaşdırılır. Muxtar respublika gəncliyi gənclər siyasətinin ətrafında sıx birləşərək, bilik və bacarıqlarını nümayiş etdirərək sosial iqtisadi, mənəvi-mədəni sahələrdə hüquqi dövlət və vətəndaş cəmiyyəti yolunda ölkəmizin uğurlu addımlar atmasında yaxından iştirak edirlər.

Bu günün reallığıdır ki, Naxçıvanda təhsilin inkişafına hərtərəfli diqqət və qayğı göstərilir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin rəhbərliyi altında muxtar respublikamızın hər bir guşəsində yeni məktəblər inşa edilir. Ümumtəhsil məktəblərinin əsaslı təmiri və maddi tədris bazasının möhkəmləndirilməsi, infrastrukturunun yenidən qurulması sahəsində aparılan işlərin ardıcıl davam etdirilməsi, bütövlükdə, ümumi təhsilin keyfiyyətinin yaxşılaşmasına müstəsna dərəcədə əhəmiyyətli təsir göstərib. Muxtar respublika məktəbliləri fənn olimpiadalarında və digər beynəlxalq bilik yarışlarında ildən-ilə daha çox nailiyyətlər əldə edir, müxtəlif səviyyəli bilik yarışlarında, buraxılış imtahanlarında, eləcə də ali və orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulunda uğurlu nəticələr qazanırlar. Təhsilin keyfiyyəti müasir çağırışlara uyğunlaşdırılır, xüsusilə də inteqrasiya meyilləri getdikcə gücləndirilir.

Naxçıvan Muxtar Respublikasında STEAM təhsil metodunun tətbiqi də şagirdlərin bacarıqlarını düzgün istiqamətə yönəltməyə və fənlər arasındakı fərqi aradan qaldırmağa və bu təhsil yanaşması ilə araşdırma, istehsal və ixtiraçı nəsil yetişdirməyə xidmət edir. Bir sözlə, STEAM təhsil metodu şagirdlərdə XXI əsr bacarıqlarını inkişaf etdirməklə yanaşı, həmçinin tənqidi düşünmə, müxtəlif proqramlaşdırma dillərini tətbiq etmək istedad və qabiliyyətini də ortaya qoyur.

Yüksək qayğının nəticəsidir ki, Dövlət İmtahan Mərkəzi tərəfindən həyata keçirilən qəbul imtahanlarında məzunların ali təhsil müəssisələrinə və orta ixtisas məktəblərinə qəbul göstəricisinə görə muxtar respublikamız illərdir, öncül sırada yer alır. Ötən illər ərzində istər buraxılış imtahanlarında, istərsə də qəbulun II mərhələsində bölgələr üzrə ən yaxşı göstərici, yəni lider mövqe Naxçıvan Muxtar Respublikasına – Ordubad, Şahbuz, Kəngərli rayonlarına və Naxçıvan şəhərinə məxsusdur. Yüksək bal toplayan tələbələr siyahısında ilk beşlikdə də muxtar respublikanın 2 yaşayış məntəqəsi dayanır.

Bütün bunlar muxtar respublika gəncliyinin dünya təhsilinə inteqrasiya olunmuş səviyyədə hazırlanmasına xidmət edir. Nəticədə, orta məktəblərdə muxtar respublika gənclərinin gələcəkdə xaricdə tələbə kimi təhsil almalarının təməli qoyulur.

“Gənclərin xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrində təhsil almalarına dair 2022-2026-cı illər üçün Dövlət Proqramı”nın qəbul edilməsi Prezident cənab İlham Əliyevin ölkəmizin uzaq hədəflərinə hesablanmış səmərəli siyasət kursu həyata keçirdiyini bir daha təsdiqləyir.

*Bütün ölkə gəncləri kimi muxtar respublika gəncləri də yeni hədəflərə hesablanmış Dövlət proqramının həyata keçirilməsində yaxından iştirak edərək indiyə qədər qazanılmış nailiyyətlərin daha da möhkəmləndirilməsinə və geniş miqyas almasına öz töhfələrini verəcəklər.*

**Arzu ABDULLAYEV**
***Yeni Azərbaycan Partiyası Naxçıvan Dövlət Universiteti ərazi partiya təşkilatının sədri, tarix üzrə fəlsəfə doktoru***

## *Şahmat və fiziki tərbiyə fənninin tədrisinin vəziyyəti ilə bağlı müşavirə olub*

*Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin təşkilatçılığı ilə “Ümumtəhsil məktəblərində şahmat və fiziki tərbiyə fənninin tədrisinin vəziyyəti” mövzusunda müşavirə keçirilib.*

Müşavirədə Naxçıvan Muxtar Respublikasının təhsil naziri Rəhman Məmmədov muxtar respublikada təhsilə göstərilən dövlət qayğısından danışıb. Bildirilib ki, muxtar respublikada şagirdlərin təhsili ilə yanaşı, onların sağlam həyat tərzinə istiqamətləndirilməsi, fiziki və mənəvi hazırlığının yüksəldilməsi, idmana marağının artırılması, asudə vaxtlarının səmərəli təşkili diqqət mərkəzində saxlanılır.



Qeyd olunub ki, hazırda muxtar respublika ümumtəhsil məktəblərində 378 fiziki tərbiyə müəllimi fəaliyyət göstərir. Onların 35-i müəllimlərin işə qəbulu müsabiqələrində ən yüksək nəticə göstərən gənc kadrdır. Təhsil müəssisələrində idman infrastrukturunun yaxşılaşdırılmasının nəticəsidir ki, bədən tərbiyəsi və idman ixtisaslarına maraq artıb, təkcə ötən tədris ilində 33 məzun ali məktəblərin idman ixtisaslarına qəbul olub.

Nazir şahmatın tədrisi üçün yaradılan şəraitdən və tədrisin səviyyəsinin yüksəldilməsi üçün Şahmat Federasiyası tərəfindən görülən işlərdən də bəhs edib. Diqqətə çatdırılıb ki, ümumtəhsil məktəblərində şahmatın tədrisi üçün müasir siniflər ayrılıb, Şahmat Federasiyası ilə birgə aparılan sertifikasiya aparılıb, 505 şahmat müəllimi sertifikatla təmin edilib.

Vurğulanıb ki, ümumtəhsil məktəblərinin şahmat fənninə dair dərslik, dərs vəsaiti və digər tədris-metodik ədəbiyyatlarla təmin olunması da diqqətdə saxlanılıb, Şahmat Federasiyası tərəfindən 5 adda 600-dən artıq vəsait hazırlanaraq ümumtəhsil və şahmat məktəblərinə, həmçinin müəllimlərə verilib.

Bildirilib ki, yaradılan şəraitin və həyata keçirilən tədbirlərin nəticəsidir ki, cari tədris ilində 33 məktəbli ölkə və beynəlxalq səviyyəli idman yarışlarında uğurlu nəticələr qazanıb.

Müşavirədə Babək, Culfa, Şahbuz Rayon Təhsil şöbələrinin müdirləri, Naxçıvan Şəhər, Ordubad Rayon Uşaq-Gənclər İdman məktəblərinin direktorları, Şərur Rayon Uşaq-Gənclər İdman Məktəbinin direktor əvəzi görülən işlər barədə məlumat veriblər.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

# Mərkəzi Seçki Komissiyasının yeni veb-saytı təqdim edilib

*Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının akt zalında komissiyanın yeni veb-saytının təqdimat mərasimi keçirilib. Tədbiri giriş sözü ilə komissiyanın sədri Əjdər Əliyev açaraq "Naxçıvan Muxtar Respublikasında dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili haqqında" Ali Məclis Sədrinin 2011-ci il 15 iyul tarixli Fərmanının əhəmiyyətindən danışıb.*

Komissiya sədri qeyd edib ki, Naxçıvan Muxtar Respublikası Rabitə və Yeni Texnologiyalar Nazirliyi tərəfindən hazırlanmış *www.msk.nakhchivan.az* domen adı ilə fəaliyyət göstərəcək yeni internet saytı öz funksionallığı, sürətli keçidlər, sosial şəbəkələrə inteqrasiyası, daha rahat istifadə imkanları ilə seçilir. Bundan başqa, müvafiq bölmələrdə zəruri informasiyalar verilməklə, daha təfərrüatlı informasiya alınması üçün keçidlər yerləşdirilib. "Faydalı linklər" bölməsində "Seçkilər" İnformasiya Mərkəzinin internet səhifəsinə keçid verilib. Bu sayt vasitəsilə seçkilər zamanı muxtar respublikanın seçiciləri seçki məntəqələrinə getmədən də öz adlarını, seçki məntəqələrini və ünvanlarını asanlıqla tapa bilərlər.



Tədbir iştirakçılarını saytla tanış edən Mərkəzi Seçki Komissiyasının şöbə müdiri Əli Qədimov bildirib ki, internet saytının yuxarı sağ küncündə komissiyanın sosial şəbəkələrinə keçidlər təmin olunub. Ana menyu 5 bölmədən ibarətdir. "MSK" bölməsində Mərkəzi Seçki Komissiyası haqqında ətraflı məlumat verilib. Həmin bölmədə MSK-nın hazırda fəaliyyətdə olan üzvləri və onların seçilməsi haqqında qərarlar da yer alıb. "Mətbuat xidməti" bölməsinə mütəmadi olaraq yenilənən xəbərlər, foto və videoqalereya, həmçinin hesabatlar daxil edilib. "Seçkilər" bölməsində 2005-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə keçirilmiş növbəti, növbədənkənar və əlavə seçkilərlə əlaqədar ətraflı məlumatlar yer alıb. "Hüquqi aktlar" bölməsində isə Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının müvafiq qanunvericiliyi, həmçinin Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının normativ xarakterli aktları yerləşdirilib. "Əlaqə" bölməsi elektron müraciətlər və əlaqə vasitələrindən ibarətdir.

Vurğulanıb ki, Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının dizayn, quruluş və məzmun baxımından müasir tələblər səviyyəsində təkmilləşdirilən internet səhifəsi domenə bağlı e-poçt adresləri ilə təmin olunub. Saytın optimizasiyası (SEO-Search Engine Optimization), axtarış sistemlərinə uyğunlaşdırılması, SSL (təhlükəsizlik) sertifikatı ilə təmin olunması üçün zəruri texniki tədbirlər həyata keçirilib. Sayt Azərbaycan və ingilis dillərində fəaliyyət göstərir.

***Naxçıvan Muxtar Respublikası Mərkəzi Seçki Komissiyasının mətbuat xidməti***

***Naxçıvan Muxtar Respublikasında ümummilli liderimiz Heydər Əliyevin siyasi kursunun uğurla davam etdirilməsi digər sahələrdə olduğu kimi, səhiyyə sistemində də nailiyyətlərin qazanılmasında, əhalinin hər bir fərdinin sağlamlığının qorunmasında mühüm rol oynayır. Bu gün səhiyyə sisteminin təkmilləşdirilməsi və inkişafı dövlət siyasətinin əsasını təşkil edir. Odur ki, səhiyyə sisteminin yeni dövrün tələblərinə uyğunlaşdırılması, əhalinin sağlamlığının etibarlı təminatına imkan verən müasir tibb infrastrukturunun yaradılması 2021-ci ildə də davam etdirilib. Naxçıvan Muxtar Respublikası Gigiyena və Epidemiologiya Mərkəzinin, modultipli xəstəxananın, Şərur və Şahbuz Rayon Gigiyena və Epidemiologiya şöbələrinin, Şərur rayonunun Şəhriyar və Çərçiboğan, Ordubad rayonunun Nüsnüs, Yuxarı Əndəmic və Dırnıs kəndlərində həkim ambulatoriyası binalarının, Şərur rayonunun Dərvişlər, Ordubad rayonunun Vələver, Babək rayonunun Araz kəndlərində feldşer-mama məntəqələrinin tikintisi, Culfa Rayon Gigiyena və Epidemiologiya Şöbəsinin, Ordubad Rayon Uşaq Xəstəxanası binalarının və Babək rayonunun Göynük kəndində feldşer-mama məntəqəsinin yenidən qurulması başa çatdırılıb.***

# İnsan sağlamlığı cəmiyyətin ən qiymətli sərvətidir



2021-ci ildə muxtar respublikanın səhiyyə müəssisələrinə 17 təcili tibbi yardım avtomobili, Naxçıvan Muxtar Respublikası Gigiyena və Epidemiologiya Mərkəzinə və onun rayon şöbələrinə 9 avtomobil təqdim olunub. Hərbi qulluqçuların sağlamlığının qorunması və hərbi tibb müəssisələrində həyata keçirilən tikinti-quruculuq işlərinin davamı olaraq 2021-ci ildə muxtar respublikada müasir standartlara cavab verən Naxçıvan Qarnizonu Mərkəzi Hospitalı tikilərək istifadəyə verilib.

Tibbi xidmətlərin keyfiyyətini daha da yaxşılaşdırmaq və müasir tələblərə uyğunlaşdırmaq, habelə əhalinin sağlamlığının etibarlı qorunmasını təmin etmək məqsədilə muxtar respublika əhəmiyyətli xəstəxanalar, rayon mərkəzi xəstəxanaları, qəsəbə və kənd sahə xəstəxanalarının hamısı publik hüquqi şəxs statusu alıb, icbari tibbi sığortada iştirak edən işçilərin əməkhaqları 50 faiz artırılıb. 2021-ci ildə Cəhri və Nehrəm qəsəbə, eləcə də Aralıq kənd sahə xəstəxanalarında da icbari tibbi sığortanın tətbiqinə başlanılıb. Hazırda Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən 21 tibb müəssisəsi icbari tibbi sığortanın tətbiqində iştirak edir. 2021-ci ildə muxtar respublikada 219 minə yaxın sakin icbari tibbi sığortadan istifadə edib.





Cəmiyyətin əsas sağlamlıq göstəricisi olan sanitariya mədəniyyəti formalaşdırılıb. Ötən il muxtar respublikada gigiyena və epidemioloji xidmətin yeni müasir infrastrukturda qurulması başa çatdırılıb, Naxçıvan Muxtar Respublika Gigiyena və Epidemiologiya Mərkəzi ən müasir laboratoriya və iş otaqları, onun Şahbuz, Şərur, Culfa şöbələri ehtiyac olan müasir avadanlıqlarla təchiz edilərək istifadəyə verilib. Gigiyena və Epidemiologiya Mərkəzinin xüsusi təhlükəli infeksiyalar laboratoriyasında 3 PZR cihazı və immunoqlobulin testləri aparmaq üçün İFA quraşdırılıb.

Yoluxucu xəstəliklərin qarşısının alınması məqsədilə dezinfeksiya, dezinseksiya, larviolla delarvasiya tədbirlər intensiv olaraq davam etdirilib, hepatit B və C virus infeksiyaları, COVID-19 pandemiyasının qarşısının alınması məqsədilə əks-epidemik tədbirlər ardıcıllıqla davam etdirilib. Peyvəndləmə işi daim nəzarətdə saxlanılıb. Nikaha girənlərin öncədən tibbi müayinələrdən keçirilməsi, Hepatit, QİÇS və digər yoluxucu xəstəliklərə görə müayinələr davam etdirilib. Elə görülən bu işlərin nəticəsidir ki, muxtar respublikada kəskin və təhlükəli yoluxucu xəstəliklər aşkar edilməyib, ölkə regionları sırasında koronavirusa yoluxma faktına görə ən az göstərici Naxçıvanda qeydə alınıb.

Xəstəxana və tibb müəssisələrinin müasir avadanlıqlarla təchizatı mütərəqqi müayinə və müalicə üsullarının geniş tətbiqinə, xəstəliklərin vaxtında aşkara çıxarılmasına lazımi şərait yaradır. Hazırda səhiyyə müəssisələrimizdə dünyanın aparıcı şirkətlərinin istehsalı olan müasir avadanlıqlarla müayinə və müalicə işləri aparılır. Bu və digər səhiyyə müəssisələrində Təcili yardım, Elektrokardioqrafiya, Exokardioqrafiya, EKQ-tredmil, Rentgen, Çoxprofilli diaqnostika, Hemodializ, Cərrahiyyə, Kardiocərrahiyyə şöbələri, çoxsaylı aparat və avtoanalizatorla təchiz edilmiş laboratoriyalar, qan bankı, pulmonoloji, stomatoloji, burun-qulaq-boğaz, oftalmoloji, terapevtik, ginekoloji kabinələr fəaliyyət göstərir. Şöbə və kabinələrdə qurulmuş müasir aparat və cihazların köməkliyi ilə müxtəlif üzv və sistemlərin hərtərəfli müayinəsi mümkündür.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***"Hansı cəmiyyətdə sağlam insan çoxdursa, o cəmiyyətdə inkişaf davamlı olur. Bu səbəbdən də insan sağlamlığı dövlətimizin qarşısında duran əsas vəzifələrdəndir. Dövlət bu işdə üzərinə düşən vəzifələri yerinə yetirir, müasir səhiyyə müəssisələri tikərək əhalinin istifadəsinə verir. Səhiyyə işçiləri isə yaradılan şəraitdən səmərəli istifadə etməli, sakinlərə nümunəvi xidmət göstərməlidirlər".***

Ömürlərini Vətən, xalq qarşısında böyük xidmətlərə sərf edən, nurlu əməlləri, müqəddəs amalları ilə insanların qəlbində yurd salan tibb işçilərinin ənənələri Naxçıvan səhiyyəsində uğurla davam etdirilir. Hazırda muxtar respublikada əhaliyə 215 tibb müəssisəsi tərəfindən səhiyyə xidməti göstərilir. Həmin tibb müəssisələrində 713 həkim, 2 min 154 orta tibb işçisi çalışır ki, bu da muxtar respublika üzrə hər 10 min nəfərin 15,4 həkimlə, 46,5 orta tibb işçisi ilə təmin olunması deməkdir. Həkimlərdən 114 nəfəri Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının "Əməkdar həkimi" fəxri adlarına layiq görülüb. Onlardan 67 nəfəri hazırda tibb müəssisələrində işləyir.

Əhalinin müxtəlif yaş qrupları, aztəminatlı ailələr mütəmadi olaraq müayinə və müalicələrə cəlb olunur. Ötən il Naxçıvan Muxtar Respublika Xəstəxanasının, Diaqnostika Müalicə Mərkəzinin, rayon mərkəzi xəstəxanalarının, digər səhiyyə müəssisələrinin həkim briqadaları Vətən müharibəsi qazilərini, şəhid ailələrini yaşadıqları ünvanda hərtərəfli tibbi müayinədən keçiriblər.

Hazırda muxtar respublikanın səhiyyə müəssisələrində hər ay minlərlə insan ambulator və stasionar müalicə olunur. Bakı şəhərindən yüksəkixtisaslı mütəxəssislərin dəvət olunaraq yerli həkim kadrları ilə birgə müxtəlif cərrahi əməliyyatların aparması, humanitar tibbi aksiyaların keçirilməsi də ənənə halını alıb. Bu həm də yerli kadrların peşə vərdişlərinin yüksəlməsinə şərait yaradıb və yerli kadrlar tərəfindən müstəqil şəkildə bir çox mürəkkəb cərrahiyyə əməliyyatlarının aparılmasına nail olunub. Onların praktik vərdişlərinin artırılması istiqamətində görülən işlərin nəticəsidir ki, son illər əhalinin müayinə və müalicə üçün başqa ölkələrə üz tutmasının qarşısı alınıb.

Qəbul olunmuş Dövlət proqramlarının icrası göstərilən tibbi xidmətlərin səviyyəsinin xeyli yüksəlməsinə, xəstəliklər üzrə müayinələrin həcminin artmasına, dərmanla təchizatın əhəmiyyətli dərəcədə yaxşılaşmasına şərait yaradır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 9 oktyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasında uşaqların icbari dispanserizasiyadan keçirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı"na uyğun olaraq publik hüquqi şəxs statuslu Şərur və Ordubad Rayon Uşaq xəstəxanalarının yaradılması gələcəyimiz olan uşaqların sağlamlığının qorunması istiqamətində mühüm tədbirlərdən biridir.

Ötən il Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanası tərəfindən Naxçıvan şəhərində 20 tam orta məktəbdə 14 min 50 şagirddən 13 min 495 şagirdin dərin tibbi müayinələri, şəhər və rayon məktəblərində ilkin tibbi xidmətin düzgün göstərilməsi üçün müvafiq treninqlər həyata keçirilib.

"2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsili və reabilitasiyası üzrə Dövlət Proqramı"nın icrası ilə əlaqədar həkim ambulatoriyalarında və feldşer mama məntəqələrində monitorinqlər aparılıb, yenidoğulmuşlarda rast gəlinən xəstəliklərin erkən aşkarlanması və qarşısının alınması üçün daha dəqiq müayinə və müalicə üsullarının tətbiq edilməsi işi sistemli olaraq icra olunub. İl ərzində 2 min 793 neyrosonoqrafiya, 1546 Bera müayinəsi, 810 Fetal EXO müayinəsi aparılıb. Müayinələr aparılmadan BSJ peyvəndinin vurulması qadağan edilib. Ona görə də bütün yenidoğulmuşlar qeyri-şərtsiz müayinələrdən keçirilib. Bu da anadangəlmə qüsurların vaxtında aşkar olunmasına geniş şərait yaradır.

Dövlət proqramlarının icrası çərçivəsində xəstələrə müayinə, müalicə və dərman təchizatı sahəsində keyfiyyətli xidmət göstərilməsi işi daim nəzarətdə saxlanılıb. Həyata keçirilən tədbirlər nəticəsində şəkərli diabet xəstələrinin dərman və özünə nəzarət vasitələri ilə təminatı xeyli yaxşılaşıb. Strateji əhəmiyyətli məsələ kimi qan xidmətinin inkişafına da xüsusi diqqət yetirilib. Hazırda Naxçıvan Muxtar Respublika Xəstəxanasında mövcud şərait Mərkəzi Qan Bankının fəaliyyətinə geniş imkanlar açıb.

Disparserizasiya işini yaxşılaşdırmaq, əhalini kütləvi müayinələrdən keçirmək, ucqar dağ kəndlərində və yaylaqlarda əhaliyə yüksəkixtisaslı səhiyyə xidməti göstərmək məqsədilə yaradılmış həkim briqadaları tərəfindən yerlərdə müayinə, müalicə işləri aparılıb. Təhsil işçiləri arasında süd vəzi xərçənginin vaxtında aşkarlanması üçün profilaktik kütləvi müayinələr, qadınlar arasında xərçəngönü xəstəliklərin aşkarlanması, ilkin vərəm xəstəliyinin təyini məqsədilə kiçikyaşlı uşaqlar arasında tuberkulin test sınaqları, yuxarı sinif şagirdləri və müəllimlər arasında flüoroqrafik müayinələr, məktəbyaşlı uşaqların kütləvi profilaktik müayinələri həyata keçirilib.

Müalicə profilaktika işinin təşkili sahəsində görülən tədbirlər tibbi xidmətin keyfiyyətinin və əhatəliliyinin artmasına və eləcə də demoqrafik vəziyyətə müsbət təsir göstərib. Belə ki, 2021-ci ildə 4 min 14 uşaq doğulub, təbii artım 1170 nəfər, doğum göstəricisi 8,7, ölüm göstəricisi 6,1, 1 yaşa qədər uşaq ölümü 2,2 promilli təşkil edib.

Muxtar respublikanın səhiyyə müəssisələrinin tibbi kadrlara olan tələbatının ödənilməsi üçün tədbirlər davam etdirilib. Naxçıvan Dövlət Universitenin Tibb fakültəsində, Tibb Kollecində ixtisasların sayının artırılması, tibb müəssisələrinə hamiliyə verilməsi, xarici ölkələrdə təlimlərin təşkili, konfransların, seminarların keçirilməsi, ixtisasartırma kurslarının təşkili səhiyyə müəssisələrində ixtisaslı tibbi kadrlarla təminata imkan verir.

"Naxçıvan Muxtar Respublikasında dövlət orqanlarının elektron xidmətlər göstərməsinin təşkili haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2011-ci il 15 iyul tarixli Fərmanına uyğun olaraq ötən ildən Tibbi-Sosial Ekspertiza Komissiyasına göndərişlər onlayn sistemə keçirilib. Bu sistem sağlamlıq imkanları məhdudluq dərəcəsinin qiymətləndirilməsində vətəndaş-ekspert təması olmadan, elektron müstəvidə və şəxsin kimliyi, göndəriş verən təşkilatın hansı səhiyyə qurumu olduğu bilinmədən anonim olaraq, xəstəliyi əks etdirən tibbi sənədlər əsasında şəffaf şəkildə həyata keçirilməsinə imkan yaradır.

Səhiyyə turizmi də daim diqqətdə saxlanılır. Duzdağ Fizioterapiya Mərkəzində, Darıdağ Arsenli Su Müalicəxanasında ölkəmizin və bir çox xarici ölkələrin vətəndaşları müalicə olunurlar. Azərbaycanın rayonlarından sağlamlıq imkanları məhdud şəxslərin sanator müalicə alması üçün həmin müəssisələrə göndərilməsi keçən il də davam etdirilib.

*Muxtar respublikamızda aparılan genişmiqyaslı islahatlar göstərir ki, səhiyyə sistemi sürətlə inkişaf edir, müasirləşir. Tikilən, qurulan nə varsa, əhalinin sağlamlığının qorunmasına, orta ömür müddətinin uzanmasına xidmət edir. Ötən ili uğurlu göstəricilərlə yola salan tibb işçiləri bundan sonra da səhiyyənin inkişafına, əhalinin sağlamlığının qorunmasına öz töhfələrini verəcəklər.*

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

Yurdumuzun nemətləri

# Quru meyvələr xəstəliklərdən qoruyur

***Quru meyvələr bir çox bölgələrimizdə hazırlanır, amma məşhur və yüksəkkeyfiyyətli quru meyvələr Naxçıvanda, xüsusən də Ordubadda olur. Ordubad ta qədimdən özünün meyvə bağları ilə seçilib. Rayonda yetişdirilən meyvələr dadına, görünüşünə görə fərqlənib. Burada tarixən mövcud olan meyvəqurutma ənənələri bu gün də yaşadılır. Bu ənənələri yaşadanlardan biri də Ordubad rayon sakini, ailə təsərrüfatı başçısı Natiqə Əliyevadır. Bu sahədə təcrübəsi çox olan müsahibimlə söhbətimiz zamanı qeyd edir ki, yay və payızdan toplayıb qurutduğumuz meyvələr, xüsusən qış fəslində çay süfrələrimizin bəzəyidir. Qarşıdan gələn milli bayramımız Novruzda da süfrəyə müxtəlif meyvə quruları düzülür ki, bu da Novruz süfrəsinə əlavə zənginlik qatır. Quru meyvələrin bir çoxu – ərik, alça, zoğal, kişmiş və sair müxtəlif yeməklərin tərkibində istifadə edilir ki, bu da həmin yeməklərə əlavə dad və ləzzət qatır.***



Müsahibim bildirir ki, quru meyvələr çox istifadə edilən qida məhsuludur. Onların çay kimi dəmlənməsi də faydalıdır. Bu, insanları müxtəlif xəstəliklərdən qoruyur, sağlamlıq üçün çox xeyirlidir. Məhz buna görə də hazırda yerli bazarlarda Ordubadın quru meyvələrinə tələbat yüksəkdir. Bunun əsas səbəbi təzə meyvələr kimi quru meyvələrdə də müxtəlif yağların olmaması və onların vitamin və minerallarla zənginliyidir. Məsələn, A vitamini (ərik və şaftalı), kalsium (əncir), K vitamini (quru gavalı), dəmir və mis (heyva) kimi mühüm qidalı maddələrlə bizi təmin edir. Quru meyvələr həm də sağlam bəslənmənin mühüm tərkib hissəsi kimi pəhriz siyahılarında özünə yer tapıb. Qurudulmuş meyvələr bədəndən zərərli maddələri təmizləyir, həmçinin ürək-damar, şəkər və xərçəng kimi xəstəliklərə qarşı öz faydasını göstərir. Tərkibindəki vitaminlər və minerallar immun sistemini gücləndirir, hüceyrələri yeniləyir, allergiyadan qoruyur və yaşlanma prosesinin az da olsa, qarşısını alır. Ənənəvi qurudulmuş meyvələr həm də iştahaaçıcı qəlyanaltıdır. Məsələn, armud qurusu B və C vitaminləri ilə zəngindir. Soyuqdəyməni sağaldır, mədəni gücləndirərək həzmi asanlaşdırır. Quru əncir yaxşı bir dəmir mənbəyidir. Xolesterolu azaldır, bağırsaqların yaxşı işləməsinə kömək edir. Quru ərik həzm problemləri, stress, qanazlığı üçün faydalıdır. Ürək xəstələri bu meyvədən daha çox istifadə edirlər. Ərik qurusunu həm dəmlənmiş, həm də müxtəlif yeməklərin tərkibində istifadə etmək olar. Üzümü qurutmaqla alınmış kişmiş şirniyyata olan ehtiyacı ödəməklə, yaddaşı da gücləndirməyə kömək edir, qanın tərkibini yaxşılaşdırır. Kişmişi su və süddə isladaraq alınmış suyu içmək orqanizmə çox fayda verir. Kalsium, dəmir, B və C vitaminləri ilə zəngin olan tut qurusu şəfa mənbəyidir. Ağ tutun qurusu qızdırmasalıcı təsirə malik olmaqla immun sistemimizi qoruyur və gücləndirir. Qara gavalı qurusu ən faydalı quru meyvələrdən biri sayılır. İlk növbədə, qara gavalı və alma qurusu həzm sisteminin fəaliyyətini yaxşılaşdırır. Alça qurusu isə şəkər xəstəliyinin qarşısını alır, fiziki inkişafa kömək edir, görmə qabiliyyətini gücləndirir, həmçinin əriştəaşı, lobya və plov kimi yeməklərin hazırlanmasında istifadə edilir. Yemişan qurusunun çayını ürək əzələlərinin qüvvətləndirilməsində istifadə etmək lazımdır. Zirinc qurusu isə revmatizm, mədə-bağırsaq, qaraciyər xəstəliklərində olduqca faydalıdır.

Təsərrüfatçı onu da qeyd edir ki, meyvə qurularından hazırlanan kompot da çox xeyirlidir. Bunun üçün müxtəlif meyvə qurularını yaxşı yuyub, xırda-xırda doğrayıb axşamdan dəmləyib, səhər içmək lazımdır. Bu kompota bir-iki qaşıq bal əlavə etmək daha yaxşıdır. Natiqə xanım onu da qeyd edir ki, tərkibi vitaminlərlə zəngin cəviz, fındıq, badam gün ərzində bir ovuc qəbul edildikdə qanı tənzimləyir, ürək və damar xəstəliklərinin inkişafı riskini azaldır.

Ordubad bölgəsinə məxsus olan miyanpur, alana, sucuq bazarda ən çox tələb olunan məhsullardır, olduqca faydalıdır. Sağlamlığını düşünən hər bir insan üçün belə təmiz və faydalı məhsullar əvəzedilməzdir. Müsahibim onu da bildirir ki, qurutduqları meyvələri bazarda satışa çıxarmaqla əlavə qazanc əldə edirlər.

Gəldiyimiz qənaət odur ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2021-ci il 12 mart tarixli Sərəncamı ilə qəbul olunan "2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı" muxtar respublikamızda bu iki sahənin inkişafında mühüm rol oynayır. Beləliklə, əldə edilən məhsullar həm yerli bazarı ödəyir, həm də ailə təsərrüfatları tərəfindən müxtəlif təbii məhsullar hazırlanır ki, onlar da cansağlığının qorunmasında mühüm rol oynayır. Belə məhsullar sırasında olan quru meyvələr də süfrələrimizi bəzəməklə yanaşı, tərkibindəki vitamin və minerallar insan bədənini gücləndirir və sağlamlığımızı qorumaqda bizə kömək edir.

**✍ Güntac ŞAHMƏMMƏDLİ**

*Azərbaycan Respublikası bütün dövrlərdə öz rəmzlərinə və atributlarına sahib bir dövlət kimi tanınıb. Atributlar dövlətlərin dünya sferasında tanınması üçün mühüm önəmə sahib dəyərləri özündə ifadə edir. Bayrağımız, gerbimiz və himnimiz kimi milli valyutamız olan manatı da bir atribut kimi görməliyik.*

# Milli atributumuz olan manata hörmətlə yanaşaq



Min illər bundan öncə Azərbaycan torpaqlarında başlayan pul siyasəti əsrlərin süzgəcindən keçərək bu gün müstəqil və müasir Azərbaycan dövlətində uğurla davam etdirilməkdədir. Milli əskinasların hər biri ayrı-ayrılıqda öz üzərinə götürdüyü mədəniyyət, ədəbiyyat, tarix, Qarabağ, təhsil, iqtisadiyyat, müasirlik və zəfər kimi missiyaları uğurla təbliğ etməkdədir. Bir manatın üzərində əks olunan tar, kamança, dəf təsvirləri və himnimizin həkk olunmuş musiqisinin notları, sözsüz ki, mədəniyyətimizin carçısı olmaqla dünya dövlətləri və xalqları içərisində Azərbaycan xalqını təmsil etməkdədir. Pul kağız olsa da, üzərində əks olunan bu əvəzsiz dəyərlər min illər Azərbaycan xalqının sahib çıxdığı, günümüzə qədər gətirib çıxardığı və bu gün mühafizə etdiyi çox önəmli mirasdır.

Gündəlik həyatımızın bütün sahələrini əhatə edən, amma, təəssüf ki, bəzi vətəndaşlar tərəfindən diqqətsiz yanaşılan milli valyutamız olan manat düzgün istifadə qaydalarına əməl edilməməsi nəticəsində tədavüldə olduğu müddətdə tez bir şəkildə yararsız vəziyyətə düşür. Yararsız vəziyyətə düşən manatın istifadəsinin mümkünsüzlüyü hər bir manat üçün sahib olduğu dəyərdən artıq sərf edilən vəsaitdə itki yaradır. Manatımızı düzgün istifadə etməklə milli-mənəvi dəyərlərimizin təbliğatçısının yerinə yetirdiyi missiyaya dəstək olmaqla yanaşı, iqtisadiyyatımıza da töhfə verərik. Azərbaycan Respublikasının Mərkəzi Bankı manatın dizayn və tərtibatının yüksək səviyyədə aparılması, manatın mühafizə sistemlərinin təhlükəsizlik səviyyəsinin yüksək olması üçün istehsalını xarici dövlətlərdə peşəkar qurumlarda həyata keçirməkdədir. Manatın istehsalına xərclənən vəsaitin itkisinin qarşısını maksimum səviyyədə almaq manatı düzgün bir şəkildə mühafizə etməklə birbaşa əlaqəlidir. Milli valyutamızı pul kisələrində saxlamaq, üzərinə hər hansı yazılar yazmamaq, cırmamaq, səliqəli istifadə etmək, digər kənar təsirlərdən qorumaq vicdani məsuliyyətimiz olmalıdır. Xüsusilə də manatı toplu şəkildə səpələmək qəbuledilməzdir. İstifadə qaydalarına riayət olunmaması nəticəsində təkcə 2021-ci il ərzində muxtar respublikada 695 303 ədəd 1 manatlıq, 245 568 ədəd 5 manatlıq, 77 060 ədəd 10 manatlıq, 170 358 ədəd 20 manatlıq, 85 014 ədəd 50 manatlıq, 13 469 ədəd 100 manatlıq və 35 ədəd 200 manatlıq əskinas yararsız kimi qəbul edilmiş və ümumi məbləği 11 705 503 manat olan vəsait dövriyyədən kənarlaşdırılmışdır. Nəticədə, bu qədər əskinasın hazırlanmasına xərclənmiş vəsait itirilmiş olur və dövriyyədə yaranan kəsirlərin yerinin doldurulması üçün əlavə vəsait cəlb olunur ki, bu da xərclərin artmasına gətirib çıxarır. Vətəndaşlarımız həssas olmalı və ətrafdakı insanları bu cür halların olmaması üçün məlumatlandırmalıdır. Bu sahədə həssas yanaşma sonrakı dövrlərdə öz müsbət nəticələrini göstərəcəkdir.

**Nahid ƏLİYEV**
***Azərbaycan Respublikası Mərkəzi Bankı Naxçıvan Muxtar Respublikası İdarəsinin hüquqşünası***

# Maarifləndirici tədbir olub

Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi və "Naxçıvan Muxtar Respublikasının Dövlət Sığorta Xidməti" publik hüquqi şəxsin birgə təşkil etdiyi tədbiri giriş sözü ilə nazirliyin aparat rəhbəri Vüqar Babayev açıb. Qeyd edib ki, muxtar respublikada dövlət idarə və təşkilatların vətəndaşların humanitar, sosial və iqtisadi rifahına xidmət etməsi prioritet məsələdir. Bu tədbirin əsas məqsədi də vətəndaşlar arasında icbari və könüllü sığortaya olan marağın artırılması, sığorta növlərinin inkişaf etdirilməsi, vətəndaşlara dəymiş zərərlərin əvəzinin ödənilməsinin təmin edilməsi yolları, sığortaya olan maraq və inamlarının artırılması və könüllü sığortanın əhatə dairəsinin genişləndirilməsidir.



Tədbirdə "Naxçıvan Muxtar Respublikasının Dövlət Sığorta Xidməti" publik hüquqi şəxsin əməkdaşları Vüsal Ağayev, Mehdi Bağırov, Amil Məmmədov çıxış edərək aqrar sığorta, daşınmaz əmlakın icbari sığortası və fiziki şəxslərə məxsus olan əmlakın sığortası haqqında, eləcə də fərdi qəza sığortası, fiziki şəxslərə məxsus olan heyvanların sığortası və avtomobil nəqliyyat vasitələrinin tam sığortası barədə geniş məlumat veriblər.

Sonda mövzu ətrafında müzakirələr aparılıb, iştirakçıları maraqlandıran suallar cavablandırılıb, nazirliyin və tabe müəssisələrin işçilərinə qeyd olunan sığorta növlərinə dair buklet və broşürlər paylanılıb.

**Xəbərlər şöbəsi**

# Sakinlərlə görüş keçirilib

*Şərur rayonunda Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, Dövlət Baytarlıq Xidməti, Dövlət Baş Sığorta Agentliyinin və yerli icra hakimiyyəti əməkdaşlarının, həmçinin Naxçıvan Muxtar Respublikası Sahibkarlığın İnkişafı Fondunun nümayəndəsinin iştirakı ilə müvafiq proqrama cəlb edilən yerli sakinlərlə növbəti görüş keçirilib.*



Tədbirdə sakinlərə verilmiş aktivlərdən təyinatına uyğun istifadə edilməsi, iri və xırdabuynuzlu heyvanların saxlanılması, yetişdirilməsi və istifadə olunmasının təşkili, onlar arasında xəstəliklərə qarşı peyvəndləmə tədbirlərinin aparılması, sığorta obyekti ilə bağlı itkilərin və ya zərərlərin yaranmasına səbəb ola biləcək hadisələrin baş verməsi ehtimalı, həmçinin bu ehtimala qarşı sığortaçının üzərinə götürdüyü öhdəliklər və digər zəruri işlərlə bağlı məlumatlar verilib. Əlavə olaraq mövcud ailə təsərrüfatlarının fəaliyyətinin genişləndirilməsinə dair dəstək tədbirlərinin icrası ilə bağlı müzakirələr aparılıb, iştirakçıları maraqlandıran suallar cavablandırılıb. Sakinlər göstərilən diqqət və qayğıya görə minnətdarlıqlarını bildirib, verilən aktivlərdən daha səmərəli istifadə etməyə çalışacaqlarını bildiriblər.

Tədbirdən sonra müvafiq təşkilatların nümayəndələri Şərur rayonu ərazisində verilmiş aktivlərdən nümunəvi istifadə edən sakinlərin təsərrüfatlarına baxış keçirib, vətəndaşlara zəruri tövsiyələr veriblər.

***Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin mətbuat xidməti***

# Sağlamlıq imkanları məhdud uşaqlar arasında stolüstü tennis birinciliyi

*Naxçıvan Şəhər Üzgüçülük Mərkəzində sağlamlıq imkanları məhdud 18 yaşadək oğlan və qızlar arasında stolüstü tennis üzrə muxtar respublika birinciliyi keçirilib.*



Gənclər və İdman Nazirliyi, Gənclər Fondu və Naxçıvan Paralimpiya Federasiyası tərəfindən birgə təşkil olunan yarış bu qəbildən olan uşaq və yeniyetmələrin idmana olan marağını artırmaq, sosial reabilitasiyalarına nail olmaq və güclü tennisçilər formalaşdırmaq məqsədilə keçirilib.

Nəticələrə gəlincə Rəfael Yusifov (Naxçıvan) oğlanlar arasında birinci olub. Cəlal Mürsəlli (Culfa) və Sahil Rzayev (Şərur) müvafiq olaraq ikinci, üçüncü sıralarda qərarlaşıblar. Qızların mübarizəsində isə Gülay Nağıyeva (Culfa) qalib olub. Şəfa Abdullayeva (Culfa) ikinci, Zəhra Məmmədova (Naxçıvan) isə üçüncü yerə layiq görülüb.

İlk üçlükdəki idmançılar diplomla təltif edilib, bütün iştirakçılara hədiyyələr təqdim olunub.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

### *İtmişdir*

Qurbanov Hüseynalı İmamalı oğlunun adına olan evin 3169 inventar nömrəli texniki pasportu itdiyindən etibarsız sayılır.

***

Şərur rayonunun Çomaxtur kənd sakini İsmayılov Fəxrəddin Musa oğlunun adına olan 102013001552 reyestr nömrəli torpaq sahəsinin plan-ölçüsü itdiyindən etibarsız sayılır.

***

Kazımov Asim Adil oğlunun adına olan sürücülük vəsiqəsi itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Əli Cabbarov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 209